*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

15 AVQUST 2022-Cİ İL
№ 015 (162)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## AVROPA İTTİFAQI GÜRCÜSTANDA İSLAHAT ÇATIŞMAZLIĞININ OLODUĞUNU AÇIQLAYIB




Avropa İttifaqı (Aİ) Gürcüstana Aİ-yə inteqrasiyanın yeni mərhələsinə keçmək üçün zəruri olan islahatlardakı çatışmazlıqları açıqlayıb.

Qeyd edilib ki, nəticə Aİ-Gürcüstan Assosiasiya Şurasının sentyabrın 6-da keçiriləcək iclası üçün hazırlanmış xüsusi hesabatda yer alıb.

*“Gürcüstan çətin şəraitdə islahatlar yolu ilə getməyə davam edib. Bununla belə, biz qanunun aliliyi, idarəetmə və insan hüquqları kimi əsas sahələrdə geriləməni qeydə aldıq. Gürcüstanın Avropa perspektivini nəzərə alaraq Aİ ilə münasibətlərin yeni mərhələsinə qədəm qoyması ilə əlaqədar olaraq o, vətəndaşların bəyan edilmiş məqsəd və istəklərinə uyğun məsuliyyətli və ardıcıl yanaşma nümayiş etdirməlidir”*, - Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Josep Borrel hesabatda qeyd edib.

Avropanın qonşuluq və genişlənmə siyasəti üzrə komissarı Oliver Varheli qeyd edib ki, Aİ Gürcüstana namizəd statusu verməyə hazır olduğunu elan etdikdən sonra “top meydanın Gürcüstana aid olan hissəsindədir”. *“Demokratiya, məhkəmə islahatları, qanunun aliliyinin gücləndirilməsi, korrupsiya və mütəşəkkil cinayətkarlıqla mübarizəyə ciddi sadiqlik başlıca əhəmiyyət əsas olacaq”*, - Avropa komissarı bildirib.

## BAŞ NAZİR: ƏRAZİ BÜTÖVLÜYÜNÜ DİNC YOLLA BƏRPA ETMƏYİ PLANLAŞDIRIRIQ



*“Gürcüstan hakimiyyəti dinc, ağıllı siyasət yürütməklə ərazi bütövlüyünü bərpa etməyi planlaşdırır”.* Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Cənubi Osetiyada hərbi əməliyyatların başlamasının 14-cü ildönümü münasibətilə bildirib.

*“Biz ərazi bütövlüyümüzü bərpa edəcək və ölkəni birləşdirməklə dinc, ağıllı siyasət yolu tutacağıq. Biz məqsədimizə - Gürcüstanın birləşdirilməsinə nail olacağımıza inanırıq!”*, - Baş nazir feysbukda yazıb.

## GÜRCÜSTANDA İNFLYASİYANIN SƏVİYYƏSİ SON ON İLDƏ REKORD HƏDDƏ ÇATIB

Milli Statistika İdarəsinin məlumatına əsasən, cari ilin iyul ayında Gürcüstanda illik inflyasiya 11,5 faiz olub. Bu da son 10 ildə ən yüksək göstəricidir.

Məlumata görə, iyun ayı ilə müqayisədə illik inflyasiya 1,3 faiz azalıb.

Bununla belə ölkədə əsas istehlak mallarının qiymətində xeyli artım müşahidə olunub. Ən çox bahalaşma ərzaq məhsullarında və nəqliyyat sahəsində qeydə alınıb.

Hesabat dövründə çörək və çörək məmulatlarında 29,3 faiz, mineral və bulaq sularında, alkoqolsuz içkilər və şirələrdə 21,3 faiz, kofe, çay və kakao məmulatlarında 18,2 faiz, şəkər, mürəbbə və digər şirniyyat məhsullarında 18,1 faiz, yağ-piy məhsullarında 17,5 faiz, süd, pendir və yumurtada 16,9 faiz, balıq 14,9 faiz, ət və ət məhsullarında 12,7 faiz, meyvə, tərəvəz və üzümdə isə 13,7 faiz bahalaşma qeydə alınıb. Alkoqollu içkilərdə və tütün məmulatlarında isə 8,3 faiz bahalaşma olub. Ümumi hesablamalara görə isə bu məhsulların qiyməti illik müqayisədə 16,4 faiz artıb.

Nəqliyyat sistemində 20,6 faiz, kommunal xidmətlər üzrə 13,3 faiz qiymət artımı qeydə alınıb. Gürcüstan Milli Bankı ilin sonunda inflyasiyanın 5,2 faiz azalaraq 7 faiz olacağını proqnozlaşdırır.

## AMİRAN QAMKRELİDZE İSTEFA VERİB



Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzinin rəhbəri, baş epidemioloq Amiran Qamkrelidze istefa verib. Bu barədə məlumatı Səhiyyə naziri Zurab Azarişvili təsdiqləyib.

*“Amiran Qamkrelidzenin ölkə və xalq qarşısında böyük xidmətləri var. O, 90-cı illərin əvvəllərindən bu sistemdədir. Yaxın günlərdə o, müvafiq bəyanatla nazirliyə müraciət edəcək. Tamar Qabunia üzərinə düşən vəzifəni yerinə yetirəcək. Bunun pandemiyadan əvvəlki dövrlə və ya pandemiya zamanı baş verən hadisələrlə heç bir əlaqəsi yoxdur . O, vətənə ləyaqətlə xidmət edib, vəzifəsindən də ləyaqətlə gedir. Arenanı başqalarına verir. Amiran Qamkrelidze şəxsi istəyi ilə vəzifəsindən gedir”* , - nazir “Palitranius”un efirində qeyd edib.

Məlumat üçün bildirək ki, Amiran Qamkrelidze 2013-cü ildən sözügedən quruma rəhbərlik edib.

Səh. 2 KAMERA - Lətafət Kərimova yazır
Səh. 3 SEVGİSİZLİK - Aytən Fətullayeva yazır
Səh. 4 MÜƏLLİMLƏR VACİB TƏLİMLƏRDƏ İŞTİRAK ETMƏYƏ BİLƏRLƏRMİ?
Səh. 4 MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI HANSI PRİNSİPLƏRLƏ VERİLİR?
Səh. 4 MƏKTƏBLİ FORMASI OLMALIDIRMI?
Səh. 5 DOĞUM GÜNÜ ÖZƏLLİYİ - Esmira Ələkbərli yazır
Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze
Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

# KAMERA



"Hər canlı ölümü dadacaqdır".

Bəli, ölüm hər bir canlının gec və ya tez dadacağı, yaşayacağı təbii bir prosesdir.

Yaxşı, öldün. Arxanca bu yolasalma prosesini necə və nə cür həyata keçirirlər, hansı formada "urvatlayırlar"? Bax, əsl həngamə burada başlayır...

İraq evdən-eşikdən, biri gecə ikən qəflətən düşür ölür. Ölü yiyəsi bilmir acısını çəkə, lazım olacaq "ləvazimatları" hazırlaya, qohum-əqrəbasına xəbər edə, yoxsa sabah yığılacaq bəzi canlı, yeriyən kameraların hədəfinə tuş gəlməmək üçün gecəylə pəncərəsini silib, pərdəsinimi dəyişə. Ölən can verir ha, evdəki qorxudan molla çağıra bilmir ki, yavaşın görək, hay-haray etməyin, hələ filan yeri də təmizləyin, o cehizlik döşəkləri tökün yığın, nə bilim, çarpayıyla stolun yerini dəyişin. Elə ki, hər şey hazır olur, daha həə, ölən rahat ölə bilər, ağlayan rahat ağlasın, necə istəyir elə də vay-şüvən salsın.

Edilən "bayram təmizliyi"ndən sonra səhər "kameralar" mütləq şəkildə evin bir nöqtəsində bir barmaq toz tapır, ya yastıqdan bir tük çıxmış olur, ya şkafın içindəki stəkanlar simmetrik durmur. Və beləliklə də qırx çıxana kimi olursan dildə-ağızda. Bunlardan da əli boşa çıxanda lentə yazır filankəs nə qədər ağladı, filankəs niyə dillənmədi, bu birisi niyə bayıldı, o birisi niyə ayıldı, ölən niyə öldü, qalan niyə qaldı, bütün anketi doldurur, oradan çıxan kimi də qapı-qapı gəzib başlayır danışmağa "gözünə görünənləri". Axı nəzərə almırlar ki, insandı, məsələn, ələlxüsus da anadır, tutalım ki, xəstə uşağı rəhmətə gedib, gözünə onun pərdəmi görünür, yastıqmı, evmi görünür, evi zatən başına uçub həmin an, ay insaf yiyəsi!

Bundan da keçək, bir də görürsən ki, bir qoldan qüvvətlisi girir ortasından çəkişdirir ki, eləmə, ağlama belə, camaat baxır. Guya ki, indi belə canı yanır. Əşi, burax son dəfə görəcəyi əzizini doya-doya sarsın, qucaqlasın, halallaşsın. Yazıq bilmir ki, acısını yaşaya, yoxsa bunun sıxma-boğmasından qurtara. Axı ağlamaq nə üçün ayıb olsun. Əzizini, candan bir parçasını itirmiş birinin gözünə omu görünür ki, camaat sənə baxır, ağlama.

Çox da elə dərindən dini bilgim olmasa da, kitabların birində oxumuşdum, yazırdı ki, "İbrahimi dəfn edərkən Allahın Rəsulu (s.ə.s.) onu qucaqlayıb öpdü, ətrini iylədi, göz yaşlarını gizlədə bilməyib ağladı. Yanındakı səhabələrə bu hərəkət qəribə gəldi, çünki onlar Allahın Rəsulunu həmişə güclü, iradəli bir şəxsiyyət kimi görməyə adət etmişdilər. Hətta Əbdürrəhman ibn Avf heyrətini biruzə verərək soruşdu: "Səndəmi, ey Allahın Rəsulu (ağlayırsan)?". Peyğəmbər (s.ə.s.) onun cavabında buyurdu: "Ey Avfın oğlu, bu (yəni, göz yaşı) rəhmətdir. Yəni mən də atayam və öz körpə oğlumun ölümünə mərhəmətlə yanaşıram. Yaxud göz yaşları Allahın bizə bir lütfüdür ki, içimizdəki ağrı-acıdan bunun vasitəsilə xilas olmaq imkanını bizə verib. Həqiqətən, insan ağlamaqla yüngülləşir və təskinlik tapır".

İndi, bu camaatı rahat buraxın, qoyun acısını yaşasın. Yas yerlərinə gedərkən "kameralarınızı" bağlayın, bir zəhmət. Bağlanmırsa, getməyin. İnanın ki, o kameralar bir gün də sizi işıqlandıracaq. O zaman vay sizin qara halınıza!..

**Lətafət KƏRİMOVA**
*Mollaoğlu orta məktəbinin tarix fənni üzrə baş müəllimi*

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRLİYİ RUSİYAYA CAĞIRIŞ EDİB

Rusiya Avropa İttifaqının vasitəçiliyi ilə 12 avqust 2008-ci il tarixli atəşkəs razılaşmasına əməl etmir və işğal olunmuş Gürcüstan bölgələrində qeyri-qanuni nəzarətini genişləndirməkdə davam edir. Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyinin bəyanatında deyilir.

Bəyanatda qeyd olunub ki, Gürcüstanın Abxaziya və Tsxinvali bölgələrində fundamental insan hüquqlarının kobud şəkildə pozulması, etnik ayrı-seçkilik və yüz minlərlə məcburi köçkün və qaçqının öz evlərinə qayıtmaq hüququnun pozulması Rusiyanın qeyri-qanuni işğalının ağır humanitar yükü olmaqda davam edir.

Vurğulanıb ki, beynəlxalq insan hüquqlarının müdafiəsi təşkilatlarının məhdudiyyətsiz çıxışı və beynəlxalq təhlükəsizlik mexanizmlərinin yerlərdə yerləşdirilməsi, habelə missiyanın mandatına baxmayaraq, Aİ-nin monitorinq missiyasının Abxaziya və Tsxinvali regionlarına daxil olmasına təəssüf ki, işğalçı güc tərəfindən hələ də maneələr törədilir.

"Bu çətin fonda Avropa İnsan Hüquqları Məhkəməsinin 2008-ci il Rusiya-Gürcüstan müharibəsi ilə bağlı 2021-ci il yanvarın 21-də qəbul etdiyi qərarda Rusiya Federasiyasının Gürcüstanın Abxaziya və Tsxinvali bölgəsini/Cənubi Osetiya regionlarını işğal etməsi və onlara effektiv nəzarəti hüquqi cəhətdən təsdiqlənmiş, insan hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına görə məsuliyyətə cəlb edib. 2008-ci il Rusiya-Gürcüstan müharibəsinə ilk hüquqi qiymət verən bu qərar Rusiya Federasiyasının qanunsuz işğal və onun nəticələrinə görə hüquqi məsuliyyətdən yayınmaq üçün uzunmüddətli səylərinin nəticəsiz olduğunu göstərir".

Vurğulanıb ki, Gürcüstan Rusiya-Gürcüstan münaqişəsinin sülh yolu ilə həlli siyasətini həyata keçirməkdə davam edir və ölkənin inteqrasiyasına və sülh yolu ilə inkişafına, işğal xətti ilə bölünmüş cəmiyyətlər arasında etimadın bərpasına və Avropa sayağı gələcək qurulmasına can atır və bu yolda beynəlxalq tərəfdaşlarla sıx əməkdaşlıq edərək diplomatik və hüquqi vasitələrdən istifadə edir.

"Gürcüstan beynəlxalq ictimaiyyətin ölkənin suverenliyi və ərazi bütövlüyünə göstərdiyi sarsılmaz dəstəyə görə minnətdardır və Rusiya-Gürcüstan münaqişəsinin sülh yolu ilə həlli prosesində beynəlxalq tərəfdaşların töhfəsini yüksək qiymətləndirir. Rusiyanın Ukraynaya qarşı hərbi təcavüzü ilə beynəlxalq hüququn prinsiplərini pozmaqda davam etdirdiyi və Avropanın təhlükəsizliyinə zərbə vurduğu bu dövrdə sözügedən dəstək xüsusi əhəmiyyət kəsb edir.

Xarici İşlər Nazirliyi Rusiya Federasiyasını Gürcüstana qarşı qeyri-qanuni və təxribat xarakterli hərəkətləri dayandırmağa, Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə, 12 avqust 2008-ci il tarixli atəşkəs razılaşmasına əsasən Avropa İttifaqı qarşısında götürdüyü öhdəlikləri yerinə yetirməyə, öz hərbi qüvvələrini geri çəkməyə, Gürcüstan ərazisindən çıxarmağa və işğal olunmuş ərazilərin müstəqilliyinin tanınması haqqında qeyri-qanuni qərarı dəyişməyə çağırır.

Xarici İşlər Nazirliyi beynəlxalq ictimaiyyəti Gürcüstan ərazilərinin işğaldan azad edilməsi, məcburi köçkünlərin və qaçqınların öz evlərinə qayıtması istiqamətində birgə səyləri yönəltməyə, Gürcüstanda və bütövlüklə regionda sülh və təhlükəsizliyin təmin edilməsi üçün təsirli addımlar atmağa çağırır".

## HÖKUMƏT ÖLKƏDƏ AVTOMOBİL YANACAĞININ QİYMƏTİNİN AŞAĞI SALINMASI İLƏ BAĞLI YOLLAR AXTARIR

Gürcüstan hökuməti ölkədə avtomobil yanacağının qiymətlərinin aşağı salınması ilə əlaqədar yollar axtarır. Hökumət yanacağın qiymətlərinin avqustun sonunadək aşağı düşəcəyini gözləyir. Bu sözləri jurnalistlərə açıqlamasında Gürcüstanın iqtisadiyyat naziri Levan Davitaşvili söyləyib.

Nazir bu məsələnin iri yanacaq satış şəbəkələrinin nümayəndələri ilə görüşdə müzakirə olunduğunu bildirib.

Onun sözlərinə görə, görüşdə özəl sektorla birlikdə yanacaq bazarında rəqabət məsələləri, o cümlədən yanacağın mövcud qiymətlərinin aşağı salınmasını təmin edə biləcək ucuz yanacaq tədarükü mənbələrinin axtarışı müzakirə olunub. Bundan əlavə, görüşdə neft məhsulları bazarının monitorinqinin nəticələri də diqqət mərkəzində olub.

Yanacaq bazarında daha yüksək rəqabətin olmasının vacibliyi qeyd olunub, şirkətlərlə bu məqsədə necə nail olmaq və böyük şirkətlərin istehlakçılara daha sərfəli qiymətə yanacaq təklif edə bilmələri ilə bağlı məsələlər nəzərdən keçirilib.

Qeyd edək ki, "Globalpetrolprices"in məlumatına görə, bu gün region dövlətləri ilə müqayisədə avtomobil yanacağının qiyməti Gürcüstanda daha çox bahadır. Bu gün Gürcüstanda benzinin qiyməti 3,68 – 3, 75 lari, dizel yanacağının qiyməti isə 4,55-4,77 lari arasında dəyişir.

Əvvəllər yanacağın qiymətinin artımı larinin dollar qarşısında dəyər itirməsi ilə əlaqələndirilirdi.

Yanacağın qiyməti 1 ABŞ dollarının 3,45 lariyə bərabər olduğu dövrdə bu səviyyəyə qalxmışdı. Lakin son 2 ayda 1 ABŞ dolları 2,70 lariyə dəyişdirilir. Lari dollar qarşısında dəyər qazansa da bu yanacağın qiymətinə təsir etməyib.

# SEVGİSİZLİK



Həyat nə qəribədir, birimiz xoşbəxtkən, digərimiz deyilik. Birimiz sabaha ümid dolu gözlərlə baxarkən, birimiz qaranlıq bir quyunun dibindən baxırıq.

Hər gün başqa bir xəbərlə oyanırıq. Bir sabah hələ həyatı yeni tanımağa başlayan bir gəncin intiharı ilə, digər sabah sırf imtahandan kəsildiyi üçün ailəsi tərəfindən psixoloji şiddətə məruz qalaraq həyatdan bezidiyini deyib, ölümü seçərək bu dünyanı tərk edən bir gəncin xəbəri ilə. Axı niyə bəzi valideynlər bunu öz övladlarına edirlər? Çoxmu çətindir uşağı oxumasa, onların istədikləri bir şeyə nail olmasa belə onu sevmək? Niyə hələ uşaq özünü tanımamış onun beyninə bunu yeridirlər ki, "sən əla qiymət alsan sənə sevgi göstərərik", "sən bu yarışda uğur qazansan səni daha çox sevəcəyik". Uşağa sadəcə onların övladı olduğu üçün sevgi göstərmək bu qədər çətin olmamalıdır.

Belə bir həyat düşünün, uşaq uğursuz ailədə dünyaya göz açıb, yaşadığı şəraitdə sevgisiz böyüyüb, dəyər görməyib, hiss və düşüncələri nə soruşulub, nə də ciddiyə alınıb. Bu şəkildə həqiqi sevgidən xəbərsiz gənc yaşa gəlib çatıb. Daxilən həyatında bir şeylərin tərs getdiyini, bir şeylərin əskik olduğunu hiss edir, amma ağlı hələ ona nələr olduğunu göstərə bilmir. Çünki dərketmə baş verməyib. Elə buna görə də rastına çıxan, bir balaca dəyər gördüyü ilk şəxsə təslim olur. Çünki bu gənc uşaqlıqdan "təslim olmasa onu sevməyəcək, tərk edəcək" düşüncəsi ilə böyüyüb. Günümüzdə yüzlərlə belə gənc var. Bu hisslə yetişən gənclər ailəsindən görmədiyi sevgini, hörməti, dəyərli olmağı kənarda axtarır.

Biz gəncik hələ həyatın nə olduğunu təzə öyrəşməyə başladığımız bir dönəmdəyik, əlbəttə, səhvlərimiz olacaq, əlbəttə, ağlımız qarışacaq, qarşımıza çətinliklər çıxacaq, səhvi görmədən doğrunu necə ayırd etmək olar? Amma sevgiyə möhtac olan həmyaşıdlarım ki var, onların bu vəziyyəti məni çox narahat edir. Düşünün, biz hələ kiçik bir şəhərcikdə yaşayırıq, bir çox sevgiyə möhtac, həyatından bezmiş, hətta intihar düşüncəsi olan gənclər tanıyıram. Cəmiyyət, ailə və bəzi insanlar fərqində olaraq və ya olmayaraq göstərə bilmədikləri sevgiylə həyatdan tutmaq üçün özünə bir yer axtaran gəncin, bir fərdin işığını söndürürsünüz (Bu dediklərimi hər kəsə şamil etmirəm). Gənc özü fərqində olmur bəlkə də. Həyatdan zövq almamağa başlayır, bir sözlə, fərqində olmadan o işığı söndürür. Artıq son nöqtəyə çatanda isə, gec olur. Qaranlığa düşür, bir kimsə də onu düşdüyü quyudan çıxarmaq üçün nəsə etsə belə artıq məsələ müşkül olur. Bu vəziyyətdə olan dostuna, tanışına, sinif yoldaşına kömək etmək istəyirsən, uzun ip atırsan ki, tutub çıxsın, ipi tutub yuxarı dartınsa belə kiçik bir problem də ipi yarıda kəsib atır. Yenidən qaranlığın dərinliyinə düşür, özünü məhv edir. Çünki daxilində sevgi işığını söndürüb, yenidən yandırmaq ağlına gəlmir.

Hansı ata, ana uşağının bu vəziyyətə gəlməsini istəyər? Amma gəl gör ki, fərqindədirlərmi, bilirlərmi?

Həyatın ən vacib hədiyyəsi həqiqi sevgi ilə böyüməkdən məhrum olan uşaqlar, "mən dəyərliyəm", "sevilirəm", "mənə güvənirlər" hisslərini yaşamayanlar bu hisslərin acına çevrilirlər. Sevgisizliyin boşluğunu doldurmaq üçün sevgini kənarda axtarırlar.

Sevgisiz böyüyən insan inkişafdan dayanmış kimi bir vəziyyətə düşür. Fiziki cəhətdən böyüsə də, mənəvi tərəfi yoxsul qalır. Bəs bunun bir həlli yolu yoxdurmu, bu insanlar qaranlıqda qalmağa məhkumdurlarmı? Əlbəttə, yox! Hər nə olur olsun, yaşamaq, həyatınızda sizə mənfi təsir göstərən hər şeydən uzaq qalmaq, kiməsə ehtiyac duymamaq, öz ayaqları üstündə dayanmağa çalışmaq, hər problemimizdə bizim yanımızda kiminsə olduğunu düşünüb, onsuz da yanımdadır, yıxılsam qaldırar demək lazım deyil. Çünki bu, hər zaman belə olmur. Həyatdır, bir-birindən fərqli bir çox insanlar girib-çıxa bilər həyatımıza, normaldır. Təkbaşına nələrəsə nail olmağa çalışmağa öyrəşmək, alışmaq lazımdır. Və ən əsası da bunu özümüzü sevərək, gördüyümüz işləri sevərək etmək lazımdır. Unutmayın:

Sevgisiz zəka bizi lovğa edər.
Sevgisiz ədalət bizi amansız edər.
Sevgisiz itaətkarlıq bizi xidmətçi edər.
Sevgisiz kasıblıq bizi deyingən edər.
Sevgisiz gözəllik bizi gülünc edər.
Sevgisiz işləmək bizi kölə edər.
Sevgisiz inanc bizi fanatik edər.

Aydınlığın olduğu yerdə qaranlıq özünü qoruya bilmədiyi kimi, sevginin olduğu yerdə də heç bir neqativ güc ola bilməz.

Yazımı çox sevdiyim bir cümlə ilə tamamlamaq istəyirəm: "Cəhənnəm insan həyatında sevginin bitdiyi yerdir" (Fyodor Dostoyevski).

**Aytən Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin 11-ci sinif şagirdi*

# GÜRCÜSTAN GƏNCLƏRİNƏ YARDIM VƏ MAARİFLƏNDİRMƏ TƏŞKİLATININ NÜMAYƏNDƏLƏRİ TÜRKİYƏDƏ SƏFƏRDƏ OLUBLAR















Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının sədri Musa Hacıyev və təşkilatın layihə rəhbəri Zviad Koçalidze 8-10 avqust tarixlərində Türkiyənin paytaxtı Ankara şəhərində işgüzar səfərdə olublar.

Səfər çərçivəsində onlar Türkiyənin Beynəlxalq Texnologiya, İqtisadiyyat və Mədəni Əlaqələr Birliyinin rəhbəri Şükrü Özek, Türkiyə prezidentinin Baş məsləhətçisi Seyit Sertçelik, Yurtdışı Türklər və Akraba Toplulukları Başqanlığının (YTB) rəhbəri Abdullah Eren, Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) rəhbəri Serkan Kayalar və Yeddi İqlim Mədəniyyət və Sənət Dərnəkləri Federasiyasının rəhbəri Kamal Özaydınla görüşərək təşkilatın fəaliyyətindən və gələcək planlardan danışıblar.

Gürcüstanlı qonaqlar bütün görüşlərdə səmimi qonaqpərvərliklə qarşılanıblar.

# D.NARMANİA: GÜRCÜSTAN İSTEHLAK ETDİYİ TƏBİİ QAZIN 90 FAİZDƏN ÇOXUNU AZƏRBAYCANDAN ALIR



Gürcüstan istehlak etdiyi təbii qazın 90 faizdən çoxunu Azərbaycandan, cüzi bir hissəsini isə Rusiyadan alır. Elektrik enerjisinin də müəyyən hissəsini Azərbaycandan, Türkiyədən və Rusiyadan alır. Bu sözləri Gürcüstan Milli Enerji və Su Təchizatının Tənzimlənməsi Komissiyasının sədri David Narmania söyləyib.

Onun sözlərinə görə, son günlər Gürcüstanın Rusiyadan enerji asılılığı barədə həqiqətə uyğun olmayan məlumatlar yayılır və bu məlumatların heç bir əsası yoxdur.

"Bizim Rusiyadan enerji asılılığımız yoxdur. Gürcüstanın həm Azərbaycandan, həm də Türkiyədən elektrik enerjisi idxal etmək imkanı var. Təbii qazın isə 90 faizdən çoxu Azərbaycandan, çox cüzi miqdarı isə Rusiyadan idxal olunur", - deyə D.Narmania bildirib.

Komissiya sədrinin sözlərinə görə, Gürcüstana elektrik enerjisi Rusiya, Azərbaycan və Türkiyədən idxal olunur ki, bu da həmin ölkələrin müəyyən dövrdə hansı qiymətə məhsul təklif etməsindən asılıdır.

"Bizim Rusiyadan enerji asılılığımız yoxdur. Mən bunu həm elektrik enerjisi, həm də təbii qaz baxımından tam məsuliyyətlə bəyan edirəm", - deyə komissiya sərdi vurğulayıb.

## MÜƏLLİMLƏR VACİB TƏLİMLƏRDƏ İŞTİRAK ETMƏYƏ BİLƏRLƏRMİ?




Statusu olan müəllimlər vacib təlimlərdə mütləq iştirak etməlidirlər. Baş müəllimlər üçün 20 saatlıq, aparıcı müəllimlər üçün 12 saatlıq, mentor müəllimlər üçün isə 6 saatlıq təlimlər təyin edilib. Bəs müəllimlər bu təlimlərdə iştirak etməyə bilərlərmi və belə hallarda nə baş verir?

Məlum olduğu kimi, müəllimlər təlimlərin minimum 70 %-də iştirak etmək məcburiyyətindədirlər. Əks halda, onlar Müəllimlər Evinin sertifikatını ala bilməyəcəklər. Ancaq istisna hallar da var, məsələn, əgər müəllim təlimdə iştirak edə bilmirsə, o, trenerə bu haqda bildirməlidir, trener isə həmin müəllimi başqa qrupa daxil etməlidir.

Nəzərə almaq lazımdır ki, "Teams" proqramı müəllimlərin təlimdə iştirak edib-etmədiyini avtomatik olaraq qeyd edir. Ona görə də müəllimlər təlimdə iştirak etmədiyi halda mütləq bunu nəzərə almalıdırlar.

## PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT AVQUSTUN 22-NƏ KİMİ DAVAM EDƏCƏK

Peşə təhsili almaq istəyənlərin qeydiyyatı avqustun 22-nə qədər davam edəcək.

Bu il dövlət və özəl peşə təhsili müəssisələri bütün Gürcüstan miqyasında müxtəlif sahələrdə tələbat olan 200-dən çox peşə təhsili proqramına tələbələr qəbul edəcək. Həmçinin baza təhsili olan tələbələrə peşəni mənimsəməklə yanaşı tam təhsil almağı da təklif edəcəklər. Qeyd olunan proqramı uğurla başa vurduqları halda məzunlar məktəb attestatına bərabər diplom alacaqlar.

Peşə təhsili bütün maraqlanan şəxslər üçün onların fərdi ehtiyaclarını nəzərə almaqla bütün Gürcüstan miqyasında əlçatandır.



Qeydiyyat onlayn qaydada **"vet.emis.ge"** veb-səhifəsində, eləcə də Gürcüstan miqyasında fəaliyyət göstərən peşə təhsili proqramları həyata keçirilən müəssisələrdə mümkündür.

## MÜƏLLİMLƏRİN ƏMƏKHAQQI HANSI PRİNSİPLƏRLƏ VERİLİR?



Müəllimlərin əməkhaqqı təcrübə, status, dərs saatı və digər faktorlardan asılıdır. Müəllimlər bu sxemlə yaxşı tanışdırlar, ancaq yeni kadrlar bu məsələ ilə tez-tez maraqlanırlar və məhz buna görə "etaloni.ge" ictimai məktəblərdə müəllimlərin əməkhaqlarının hansı prinsiplər əsasında verilməsinə aydınlıq gətirib:

**Beləliklə, əməkhaqqının verilməsi ilə bağlı dörd komponent:**

1. Dərs saatları (həftədə 18 saat);
2. Sinif rəhbərliyi (bu halda 101 lari əlavə olunur);
3. Status (15 dərs saatına statusun tam əlavəsi köçürülür, ancaq ondan az olarsa saatlara bərabər əlavə köçürülür);
4. 18 saatdan artıq saatınız varsa əlavə saat üçün əməkhaqqı alırsınız və bu maksimum 25 dərs saatı daxil olmaqla hesablanır.

**Statusa görə əlavələr:**

a) Baş müəllim üçün 570 lari;
b) Aparıcı müəllim üçün 950 lari;
c) Mentor statusu olan müəllimlər üçün isə 1250 lari müəyyən edilib.

## MƏKTƏBLİ FORMASI OLMALIDIRMI? – DİREKTORLARIN FİKRİ NƏDİR?

***Şagirdlərin məktəbli forması geyinməsi ilə əlaqədar ictimaiyyətdə fikir müxtəlifliyi var. Bəziləri hesab edirlər ki, məktəbli formaları vasitəsilə uşaqlar bərabər şəraitdə olurlar, digərləri isə bunun rahat olmadığını deyirlər.***

***Qeyd edək ki, Gürcüstanın ictimai məktəblərində forma geyinmək müəcburiyyəti yoxdur. Ancaq qadağan da edilməyib və bəzi təhsil müəssisələrinin rəhbərləri bu məsələni daxili tənzimləmə ilə həll edirlər.***

***Maraqlıdır, ictimai məktəb direktorları bu haqda nə düşünürlər – məktəbli forması olmalıdırmı? Məsələ ilə bağlı "etaloni.ge" məktəb direktorlarının fikirlərini öyrənib:***

**Manoni Mamulaşvili – Kobuleti bələdiyyəsinin Lekvi kəndinin 1 saylı ictimai məktəbinin direktoru:**

– Şəxsən mən hamı üçün eyni formanın olmasını mühüm hesab etmirəm. Çünki bugünkü şagirdlərin müxtəlif tələbatları və baxışları var. Ancaq hesab edirəm ki, uşaqların geyimi məktəbə uyğun olmalıdır. Ola bilsin, uşağı standart çərçivəyə salmayaq, amma şagirdin şagird olduğu hiss olunmalıdır. Müvafiq geyim ola bilər, ancaq bu, uşaqların zövq və tələbini sıxışdırmamalıdır, eyni zamanda məktəbə uyğun şəkildə getmək məsuliyyəti daşımalıdırlar.

Məktəbli formasının müsbət tərəfi kimi uşaqlar arasında sosial fərqin bilinməməsini qeyd edə bilərik. Elə hallar var ki, uşağın ailəsinin bahalı geyimlər almaq üçün imkanı yoxdur. Bu zaman uşaqda müəyyən komplekslər yarana bilər. Həmçinin uşağın necə görünmək və geyinmək istəyi ilə bağlı seçim hüququnu da nəzərə almalıyıq.

Bizim zamanımızda məktəbli forması vacib idi. Bir-birimizlə kimin daha ağ köynəyi var deyə yarışırdıq da. O zaman da məktəbli formasını bir az fərqli tikdirmək imkanımız var idi.

**Vera Koçiaşvili – Kaxaber Breqvadze adına Tercola bələdiyyəsinin Qoqni ictimi məktəbinin direktoru:**

– Mənim 60-dan çox yaşım var və mən şagird olanda forma xoşagəlməz idi. Xatırlamaq üçün isə xoşdur... Əgər şagirdlərin özünün forma geyinmək istəyi olarsa, mənə də qəbuldur. Amma məktəbli formasının bəzi uşaqlarda müəyyən komplekslər yaratmasını düzgün hesab etmirəm. Kompleks dedikdə nəyi nəzərdə tuturam – şagirdin özünü rahat hiss edə bilməyəcəyi formanı bəyənə bilmərəm. Şagird olduğum zaman formaya qarşı etirazım olmayıb, amma rutin və bezdirici idi. Hər gün eyni geyimi geyinməli olurduq. İndiki baxışdan yaxşı idi, ancaq o zaman başqa cür fikirləşirdim.

**Badri Qeladze – Xulo bələdiyyəsinin Danisparauli kənd ictimai məktəbinin direktoru:**

– Fikrimcə, məktəbli forması geyinmək məqsədəuyğundur. Amma valideyn və uşaqların fikrini nəzərə almaq lazımdır. Məktəbli formasının müsbət tərəfi odur ki, hamı məktəbə səliqəli şəkildə gələcək. Bərabər şəraitdə olmaq şagirdlərdə stimul yaradacaq. Mənfi tərəfi isə odur ki, şagirdin bir, ya iki forması olmalıdır. Bəzi ailələrdən isə məktəbə üç uşaq gedir. Bu məsələ,ola bilsin, ailələrə maddi təsir göstərsin.

Mən şəxsən sovet dövründə təhsil almalı olmuşam və qalstuk da taxmışam. Formaya görə narahatlıq hiss etmirdim və hamının eyni şəkildə görsənməsi xoşuma gəlirdi.

**Kote Qoqiaşvili – Tercola bələdiyyəsinin Rupoti ictimai məktəbinin direktoru:**

– Fikrimcə, məktəbli forması olsa yaxşı olar. Amma mütləq deyil. Məktəbli formasının da mənfi tərəfləri var. Məsələn, valideynlərin iqtisadi vəziyyəti. Çünki uşağa birdən artıq forma lazım ola bilər. Doğrudur, məktəbli forması müxtəlif faktorları həll edir, hamı eyni şəraitdə olur, amma mənfi təsiri də var. Mənim vaxtımda forma geyinmək vacib idi, ancaq məktəbli formaları haqqında o zaman da müxtəlif fikirlər var idi.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# DOĞUM GÜNÜ ÖZƏLLİYİ



Mən heç vaxt uşaqlarıma təntənəli doğum günü keçirməmişəm. Yumru yaşları dostlarıyla olublar, amma sıradan yaşlarda fərqli. Səbəbi anamdan gəlib. Bəlkə də zamanla bu dəyəri qiymətləndirməmişdim, indi yetkin yaşda yaddaş mənə anamdan çox şey deyir. Çox təəssüf ki, bu fikirləri onunla bölüşməyə əcəl imkan vermədi. Mənə qalan anamın özünəməxsus ailə qaydaları idi ki, mən bu fikri sizinlə bölüşürəm.

Uşaqlıqda qohum uşaqların AD GÜNÜ dedikləri məclislərə gedərdik. Adətən hədiyyələr alardılar, əksər hallarda billur qablar, dəsmallar, süfrələr, hətta oğlanlara da eyni hədiyyələr olardı. Sonralar bildim ki, analar öz aralarında belə qərarlaşırlarmış ki, evə lazım olan şeylər olsun. Qohum, qonşu, dost, tanış yığılardı. İki yerdə süfrə açılardı bizim uşaqlığımızda, çünki qadınlar içmirdilər, həm də söhbət mövzuları tutmazdı. Beləliklə, hamı deyər, gülər, yeyər, içər, kişilərin sağlıq badələrinin çıqqıltısı bu masadan o masaya keçərdi. Gecəyarıya qədər davam edən məclisdə səbəbkara qalan bəlkə təsadüfən kiminsə çaşıb aldığı oyuncaq, ananın ikigünlük süfrə hazırlığından qaynaqlanan uşağa diqqətsizliyi və gecəyarıya qədər pozulmuş uşaq rejimi, səs-küydən yatmayan, yaxşı yeməyən uşağın hələ sabahkı yırıyığışda ananın uşağa yenə ayıra bilməyəcəyi zaman...

Mənim rəhmətlik anamın bizə heç ad günü yığıncağı etdiyi yadıma gəlmir. Yalnız mənə öz xahişimlə 11-ci sinifdə müəllimlər və şagirdlərlə birlikdə anamın deməyində "şükranlıq yığıncağı" elədi. Ad günü deyənlərə deyərdi: "Yox, ad günü deyil, şükr edək ki, böyüdü, məktəbi bitirdi". Mən fevral doğumlu idim, yığıncaq iyunda, son zəngdən sonra oldu.

Hə, anam neylərdi, bizim istədiyimiz ən ümdə, yəni bizim üçün əlçatmaz ola biləcək bir şeyi söz verirdi ki, "yaşında düzələr". Əgər bu söz deyildisə olacağı mütləq idi, hətta qardaşımın 16 yaşı vardı, ona söz vermişdi ki, səni turist kimi Türkiyəyə, Suriyaya yollaya bilərəm. Anam atama bilmirəm hansı yolla, necə pasport aldırdı və qardaşımı yollaya bildi. Axı söz vermişdi. Yəni ürəyində istədiyin arzunu doğum günü yerinə yetirməklə həmin günü bizə müqəddəsləşdirirdi.

Birinci kursda oxuyurdum, fərqli dəri gödəkcələr dəbdə idi. Fevralda atam məni gəlib maşınla Bakıdan Gürcüstana gətirdi. Getdik məşhur "Qızılhacılı alverçi"nin evinə. Qadın atama dedi:

*– Ay sağolmuş, bunu dekabrdan gətirdibsiz, pulunu da veribsiz, gəlin aparın, dana.*

Atam güldü:

*– Bilirsən də, bizim komandirin öz planları var.*

*– Əşşi, razılaşmıram sizinlə. Bu qız o boyda universitetdə oxuyur, gərək ad günümü ola, yolla getsin.*

*– Bizim qayda pozulmaz.*

Onda mən də gənc idim, həm də həyatın heç bir çətinliyini, qaranlığını görməyən bir gənc. Ürəyimdə qadınla razılaşdım. Heç həmin gün ailəcə başbaşa yeməyə getməyimizin romantikasını da anlamamışdım (amma indi həmin günün qayıtması üçün dünyaları verərdim).

Yanvarın 15-i semestr başlamışdı, mən Bakıya qayıtmışdım, fevralın 19-u məni atam geri gətirdi və səhəri qaytardı. Bir günü xatırlamaq üçün hər şey var idi həmin gün.

Böyüyəndə həyat xronologiyamızı xatırlayanda gördüm istədiyimiz bizə yaxşı olan hər şey doğum günlərimizə təsadüf edibmiş. Bunlar təsadüf deyildi, anamın hazırladığı ssenari imiş. O, bizə həmin günün xüsusiliyini aşılayırmış.

Rostovda əmim qızının toyuna getməliydilər. Qohumlar hər evdən iki nəfər planlayaraq dörd maşın getməliydi. Anam məni atamla yolladı, özü getmədi. Biz maşınla getdik. Qafqaz sıra dağları. Kazbeqi gözəlliyini qar uçqunun təhlükəsiylə keçdik. Qayıdanda xalamın anamı danladığını eşitdim:

*– Vallah, başa düşmürəm, bu nə xasiyyətdir səndə. Nolsun ad gününə düşürdü, uşağı soyuqda sıldırım qayalarla hara yollayırsan?*

Anam həmişəki kimi gülümsədi:

*– Pismi oldu, yadda qalan gün oldu, heç yadından çıxmayacaq.*

Fəqət anamı hamı başa düşmürdü. Uşaqlığım, gəncliyim anamın qoyduğu qaydalarla keçdi, heç ad günüm olmadı, amma o günü əbədiləşdirən 25 önəmli hadisə vardı.

Nişanlı olanda nişanlım böyük hədiyyələrə tərəf gedəndə deyərdim:

*– Yox əşşi, neynirsən, qiymətləndirmək üçün bir qızıl gül bəs edər, təki orada səmimiyyət, sevgi olsun...*

Bir ədəd qızılgülü çələng edib bir şirvan deyilən on min manata satdılar. Bax, elə həmin gün ilk dəfə ad günü hədiyyəsini ailəmdən yox, nişanlımdan aldım. Bu günə qədər də xüsusi günlərdə həmin gülün gələcəyini bilirəm.

İndi mən də gedirəm ad günlərinə. Xüsusən də uşaqların. Elə böyük fərq yoxdur bizim uşaqlıq dövrüylə. Sadəcə onda ayrı masalar olurdu, indi qadınlardan da spirtli içki içənlər var, indi kişilər arvad söhbəti, arvadlar kişi söhbəti edə bilir deyə masalar da qarışıq olub. Dəyişməyən bir uşaqlardır. Onlar bütün dövrlərdə uşaq olurlar, onları valideynin maraqları maraqlandırmır, öz arzuları, öz dünyaları var. Mən çox istərdim, uşaqlara hədiyyə alam, amma valideynin açdığı süfrənin zənginliyi pul verməyi tələb edir (kaş ki, imkanım olaydı uşağa da ayrı hədiyyə ala biləydim).

Baxmayaraq, ad gününə getsəm də mən uşaqlara ad günü yığıncağı etmirəm. Həmin günü xüsusi qeyd edirik – xüsusi gəzinti, səyahət, istədiyi əşya və s. Bir sözlə, həmin gün o uşağın olur, nə istəyir olur – bəzən şəhərdə, bəzən meşədə, bəzən ona daha maraqlı olan sahədə.

Yaxında qızımın ad günü idi. Ailəlikcə Tiflisi gəzdik, sonra özünün xahişi ilə Hopret-Yunan şəlaləsinə getdik və orada piknik etdik. Sonda qızım atasıyla mənim boynumu qucaqlayıb: *"Yaxşı ki, varsız, yaxşı ki, mənim valideynlərimsiz. Sizi çox, çox, lap çox sevirəm"*, - deyəndə hər ikimiz kövrəldik. Mən daha çox göz yaşlarımı saxlaya bilmədim, atası qızının ondan razı qalmağına və bunu qiymətləndirdiyinə kövrəlmişdi, amma mən ona kövrəlmişdim ki, mən heç vaxt bu fərqlilik üçün anama təşəkkür etməmişdim...

**P.S.**

Kaş ötən günləri qaytarmaq olaydı, film kimi yəni. Anam məni eşitsəydi, deyərdim ki, ana sənli yaddaşımın küncündə belə qalan hər xırda nöqtədən ibrət almışam. Həyatda yoxsan, amma hər əməlimdəsən!

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

## (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Müəyyən edildiyi kimi, Oğuz tayfaları arasında ayrı-ayrı bəylərin, əsasən onların sədaqətli xidmətinin əməlli-başlı olmayan dəyərindən irəli gələn və bu da kəskin, elə götürək siyasi parçalanmaya səbəb olan narazılığının ifadəsi nadir müstəsna hal deyildir. Çünki bu, ümumiyyətlə, feodal quruluşu üçün adi hal idi. Lakin əlahiddə qeyd etmək lazımdır ki, Şərqin qəhrəmanlıq eposunda bu cür qiyamçılar yaltaqlara nisbətən daha çox yurdun və ölkənin müdafiəçisi təsirini bağışlayır.

Lakin indi süjetin gedişinə qayıdaq. Xatun Bəkilə məsləhət görür ki, "Padşahına asi olanın işi rast gəlməz. Arı könüldə pas olsa şərab açar. Ava bimgil, könlün açılsın!"

Bəkil fikrə getdi, xatunda kişi ağlı var imiş, deyə düşündü və ova getdi. Lakin ov zamanı onun qarşısına yaralı ceyran çıxdı. Onun arxasınca düşdü. Bəkil atın cilovunu tuta bilmədi, yıxıldı, ombasını qırdı və birtəhər ordusuna yetişdi. Onun oğlu İmran qarşısına çıxdı və onu məzəmmət etdi: "Neylədin, qara donlu kafirlərəmi uğradın, alagözlü igidləri qırdırdınmı?" Atası da "hər şey əmin-amanlıqdır, yalnız məni yatağa apar", dedi. Bəkil beş gün ərzində dərindən ah-vay edirdi. Sonra öz xatununa dedi ki, ayağımı sındırmışam. Bu xəbəri xatunu qaravaşa söylədi, o da qapıçıya söylədi. Beləcə onun əlilliyi və yatağa düşməsi bütün orduya yayıldı... Casus da Bəkilin başına gələnləri təkurə çatdırdı. Bəkilə də xəbər yetirdilər ki, düşmən sənin üzərinə gəlir. Vahimələnmiş Bəkil oğluna üz tutdu, başına gələnləri ətaflı ona danışdı və xahiş etdi ki, Bayandır xanın yanına getsin, əlindən öpsün, xahiş eylə, əgər köməyə gəlməsən bu məmləkəti tamamilə xarabaya çevirərlər. Oğul atanın xahişini rədd edir: Bayandır xan barədə eşitməmişəm, onunla işim olmayıb və onun divanına varmamışam. Altındakı al ayğırı, yay-oxunu mənə ver, igidləri yanıma gətir və dini-Məhəmməd yoluna xidmət edək sənin üçün. İmranın bu cavabı onun ləyaqətindən və qürurundan, eləcə də üsyankar xarakterindən aydınca xəbər verir. O, adını eşitmədiyi Bayandır xana yardım üçün üz tutmaq istəmir. Eləcə də yeni nəslin mövqeyi bəlli olur ki, iyerarxiya üsul-idarəsinə qarşı onların münasibətini əks etdirir.

Qısası, İmran atasının atına minir və atasının yaraq-yasaqı ilə təchiz olunur. Yağı təkur Bəkilin atını görəndə əvvəlcə təşvişə düşür və qaçmaq istəyir, lakin sonra anlayır ki, ata Bəkil deyil "quş boyda oğlan" minib. Ona hücum edir və kinayəli olaraq onu alçaldır və hədə-qorxusunu belə tamamlayır:

***"Ağ saqallu baban varsa, ağlatmagil,***
***Ağ birçəklü anan varsa, bozlatmagil.***
***Yalnuz yigit alp olmaz.***
***Yovşan dibi bərk olmaz.***
***Qadası yetmiş, qavat oğlu qavat,***
***Qayıda dön buradan!"*** *(D.D.K., səh. 148; D.D.K., səh. 121; O.D.D.K.K., səh. 173).*

İmran qorxmur və cavab verir:

***"Hərzə-mərzə söyləmə, mərə itim kafir!***
***Altımda Al ayğırım nə bəgənməzsən, - səni gördi, oynar.***
***Əgnimdəki dəmür donum çığnüm qısar.***
***Qara polad uz qılıcum qının doğrar.***
***Qarğı dalı suğum nə bəgənməzsən,***
***Köksün dəlüb gögə pırlar.***
***Ağca tozlu qatı yayım zarı-zarı inlər.***
***Sadaqda oxum kişin dələr.***
***Yanımda yigitlərim savaş dilər.***
***Alp ərə qorqu vermək eyib olur.***
***Bərü gəlgil mərə kafir dürişəlim!"*** *(D.D.K., səh elə orada; D.D.K., səh. 129; O.D.D.K.K., səh. 174).*

Axırda təkur ilə İmran arasında savaş başlayır. Müxtəlif silahların istifadə olunduğu bu amansız mübarizədə heç biri qalib gələ bilmir. Sonra İmran Tanrıdan yardım diləyir və onun sayəsində təkuru yerə yıxır. Burnundan qan fışqırdı. Oğlan əlini uzatdı və təkurun boğazından yapışdı. Təkur ona dedi, aman ver və sizin dini qəbul edim. O, doğrudan da şəhadət gətirərək müsəlman oldu. Bunu kafirlər eşidərək meydanı tərk edib qaçdılar.

Dədə Qorqud gəldi, şadyanalıq etdi. Bu oğuznaməni düzdü-qoşdu, Bəkil oğlu İmranın olsun dedi.

Və nəhayət, qeyd etməliyəm ki, bu boy ilə verilən hadisə "Doqquz tümən Gürcüstan xəracı" ətrafında baş verir: Gürcüstandan üzdəniraq xərc (vergi) göndərilməsi, Gürcüstanla sərhədin möhkəmləndirilməsi və eyni zamanda qiyamçı qəhrəmanın Gürcüstanda necə sığınacaq tapmaq istəməsi və sair. Əsas fəaliyyətdə olan qəhrəmanın İmran adı Amiranın, gərək ki, qısaldılmış formasıdır. Əgər qədim gürcü eposunun gürcü və ümumiyyətlə, Qafqaz xalqları folklorunda çox geniş yayılmış qəhrəmanı – Amiranini xatırlasaq bu baxış dairəsi daha inandırıcı olar. İllah da ki, bu qəhrəmanın igidliyinin əfsanəsi dünya xalqlarının şifahi xalq ədəbiyyatında da müxtəlif boyalar spektrində dəyişikliklərə uğranmış halda özünü göstərir. Və əgər bu güman məqbuldursa, onda daha çox etibarlı olur ki, "Dədə Qorqud"un yazılı versiyası nəhayət Azərbaycan ərazisində bərqərar oldu.

* * *

Sonrakı "Uşun Qoca oğlı Səgrək" boyu iki qardaşın başına gələn sərgüzəşti və əsir götürülmüş böyük qardaşın xilas edilməsi üçün kiçik qardaş tərəfindən hücumu bizə nəql edir.

Böyük qardaş Əgrək Bayandır bəyin divanında tayı-bərabəri olmayan igid idi. İstədiyi vaxt qapı onun üzünə açıq idi, sormadan məğrurcasına ora daxil olurdu. Bir dəfə də incik düşmüş igid Tərsuzamış dedi: "Mərə Uşun qoca oğlı, bu oturan bəylər hər biri oturduğu yeri qələcəyla-ətməgilə alıbdır. Mərə, sən başumı kəsdin, qanmı tökdün, acmı döyurdun, yalıncaqmı donatdın?!"

Bu çağırış Əgrəyi düşündürdü. Qazan bəydən basqınçı qoşun istədi və onlar da ətraf ərazini Göycə gölünə qədər uzatdı. Təkurun qoruğu olan Əlincə qalasına uğradılar. Ora girdilər, ceyran, qaz, toyuq qırdılar və istirahət etdilər. Qara təkur altı yüz qara donlu kafiri bunların üzərinə göndərdi. Onlar hamısını qırdılar və Əgrəyi Əlincə qalasına saldılar.

Bu ərəfədə onun kiçik qardaşı boy-buxunlu igid Səgrək böyüdü. O, yetim uşaqlardan qardaşının əhvalatını duydu. O, anasının yanına gəldi və soruşdu: Nə müddətdir igid Əgrək əsir düşüb, balacadan tutmuş böyüyə qədər hamı ora yollandı, mən də ora getməliyəm.

Bu zaman anası deyir:

***"Qalın Oğuz bəgləri izinə varsa***
***sən vargil!***
***Ol yigidə yetdügində***
***ağ-boz atın üzərindən yerə engil!***
***Əl qavşırıb ol igidə salam vergil!***
***Əlin öpüb, boynın qucgıl!***
***Qara dağım yüksəgi qardaş degil!***
***Nə durarsan, oğul, yortgil!"***

Anasının indiyədək qardaşının əhvalatını söyləmədiyindən qəzəblənən Səgrək söyür və məzəmmət edir, gərək başını kəsəydim, al qanını yerə tökəydim deyir.

Burada artıq ikinci haldır ki, oğul valideynini öldürməyə ərk edir və ədəbsiz sözlərlə onu söyür. Bu da ki, artıq yuxarıda qeyd etdim, qədim Oğuz ənənələri üçün tamamilə qəbul edilməzdir. Lakin bu dəfə bu söyüş yalnız təzadlı effektin alınması üçün verilib ki, valideyn güclü sevgiyə və ehtiyata görə qardaşının faciəsini söyləmədikdə daha böyük bir cinayəti üzərə çıxartsın. Müəyyən olunur ki, ikinci qardaşın xilasına gəldikdə, ana məhəbbətinə və ona hörmətə nisbətən Oğuz igidləri üçün valideynin bu cür ehtiyatlılığı daha çox qəbul edilməz idi.

Lakin o, qardaşını xilas etməyə gedənə kimi, nişanlısı var və təcili ona toy edirlər, gərdəyə salırlar. Lakin yataqda oğlan qılıncını çıxartdı və araya qoydu. Gəlin deyir ki, qılıncını götür, murad ver, murad al və sarılalım. Bu zaman Səgrək deyir ki, sən ey qəhbə və artıq əvvəlcə gətirilən andı sözbəsöz təkrar edir, vurğulayır ki, qardaşımın qanını almamış kam alan deyiləm. İndi gedirəm və əgər üç il görünməsəm, hesab elə ki, daha sağ deyiləm və könlün istəyənə ərə get. Qadın yenə yalvarır, neçə il olur olsun, səni gözləyəcəyəm, "başıma erkək milçəyi də qondurmaram", təki murad ver, murad al. Lakin igid deyir: "Ala gözli oğlun qardaşını andı, gedər. Ağca yüzlü gəlinün döndərimez". Ata-anasının əllərindən öpdü, öz Qaraquş atına mindi və Dərəşam dərəsini keçdi və bir qoruğa çatdı. Cəngavərlərin xüsusiyyəti və imanı idi. Gürcülər arasında bu ki, ən qədim genetik koddur. Bundan "Pələng dərisi geymiş pəhləvan" açıq şəkildə xəbər verir.

Bu, artıq igidin tərəfindən ilk gecə muradının yerinə yetirilməsindən imtina etməsinin ikinci epizodudur ki, bu da oğuzlar arasında möhkəm bərqərar olunmuş ənənənin əyani sübutudur. Dost, istərsə də qardaş çətinlikdədir və onu xilas edənə kimi öz xöşbəxtliyindən imtina etməlisən. Bu ənənə bizdə, gürcülər və Qafqaz xalqları arasında da hökm sürürdü. Ümumiyyətlə, qafqazlı cəngavərlərinin xüsusiyyəti və inamı idi.

Səgrək ilk döyüş zamanı altı kafiri məhv etdi, üç gün, üç gecə yatmayan oğlana yuxu zor gəldi. Atın yüyənini biləyinə keçirdi və uyudu. İkinci döyüş zamanı altmış silahlı döyüşçünü dəf etdi. Üçüncü dəf onu ələ keçirmək üçün yüz nəfər gəldi və onları da dəf etdi. Hər döyüşün sonunda yatırdı, lakin at onu oyadırdı. Nəhayət, qaraya gəldilər ki, əsir igid Əgrəyi yollasınlar. Ona dedilər ki, burada dəlibaş azğının birisi var, yolçu-yoluqçunun, çoban-çoluğunun əkməyini alır. Əgrək də razılaşdı və yatan igidin üstünü aldırdı. Elə ki, o oyandı, rastına çıxanı qılıncla vurmaq istədi. Lakin gördü ki, əlində qılınc əvəzinə qopuz tutub. Onlar arasında deyişmə baş verir. Nəhayət, anlayırlar ki, qardaşdırlar, bir-birinə sarılırlar və kafirləri birgə məğlub edirlər.

Həmin gün Qoca bəy şadyanalıq etdi, hər iki qardaş gərdəklərinə girdilər və muradlarına yetişdilər.

Dədə Qorqud gəlib boy boyladı, soy soyladı, bu dastanı düzüb qoşdu:

***"Əvvəl-axır uzun yaçın uci ölüm!***
***Ölüm vaqti gəldügində arı imanından ayırmasun!***
***Günahınızı Məhəmməd Mustafa yüzi suyinə***
***bağışlasun!***
***"Amin" deyənlər didar görsün!***
***Xanım, hey!"***

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR
## URBANİZASİYA
## 19. AMERSFORT ÇARŞISINDA



*(əvvəli ötən sayda)*

Əksər Niderland şəhərləri kimi Amersfort da kanalları, kafedral kilsəsi, orta əsrlərdən qalma tikililəri, yaşıllığı ilə yaddaqalandır. Kanallar boyunca düzülmüş, kiçik bağçalarını güllərin, çiçəklərin süslədiyi əski və yeni evlərin harmonik uyğunluğu görənlərə rahatlıq bəxş edir.

Bir ilə yaxın yaşadığım, Niderland cəmiyyəti ilə az-çox tanış olduğum bu şəhər haqqında, onun insanları barədə yaddaşımda qalanları koronavirus günlərində bilgisayara danışmağa başladım.

Öncə qeyd edim ki, bu şəhər Yohan van Oldenbarneveldt (1547-1619) kimi Niderlandın İspaniya asılılığından azad olunmasında mühüm rol oynamış görkəmli siyasi xadimin və Piet Mondrian (1872-1944) kimi məşhur rəssamın vətənidir. Şəhərdə mövcud olan muzeylərin, qalareyaların arasında Mondrianın adını daşıyan mərkəz də fəaliyyət göstərir. Mondrian incəsənət tarixində özünün neoplastisizm adlandırdığı üslubu ilə yenilikçi bir rəssam kimi tanınmaqdadır.

Gətirəcəyim statistik göstəricilər də bu şəhərin tarixi abidələrlə nə dərəcədə zəngin olduğunu sizlərin gözü önündə canladırmağa yardımçı olacaq. Şəhərdə 380 dövlət əhəmiyyətli abidə ilə yanaşı, 275 şəhər və 16 bələdiyyə abidəsi də qalmaqdadır.

Hər şeydən qabaq şəhərin tarixinə kişik bir ekskurs edək. Bütün tarixi abidələr barədə söhbət açmaq imkan xaricindədir. O üzdən də, mən bir-iki örnək verməklə kifayətlənmək istəyirəm. Nə deyirsiniz?

Amersfortun tarixi hissəsini hər gün seyr edə bilirdim. Bunun üçün mənim xüsusi bir səy göstərməm də gərəkmirdi. O üzdən ki, işə gedib gələrkən yolumun bir hissəsi məhz bu tarixi məkandan keçirdi. Hər gün səhər-axşam qədim qala qapısından keçməli olurdum. Koppelport adlanan və Amersfortun ikinci şəhər divarı sayılan bu abidənin 1380-1450-ci illərdə inşa edildiyi məlumdur. Qırmızı kərpicdən tikilmiş divarın müdafiə məqsədilə tikildiyini güman etmək olar. Koppelport şəhərin su və quru ərazisinin birləşdiyi yerdə inşa olunmuşdur. Öz varlığını qorumaq üçün Niderlandın dəfələrlə silaha sarıldığını xatırlatmaq kifayətdir ki, bunun belə olduğunu təsdiqləyəsən. Avropa memarlığı üslubunda tikilmiş qala divarları bizim Bakının İçərişəhəri, Tiflisin Narınqalası ilə az-çox oxşarlıq təşkil edir. Hər dəfə buradan keçərkən, beynimdə bu paralelləri aparmaqdan xoşlanırdım. Qala qapısını keçməklə sanki bu gündən dünənə və ya əksinə gedib-gəlirsən. Səhərlər mən keçmişdən indiyə, axşamlar isə indidən keçmişə düşdüyümü düşünürdüm. Kanalın üstündə körpü kimi tikilmiş qala divarları bu gün də yaxşı qorunur, şəhərin ən diqqətəlayiq tarixi abidəsi sayılır. Əslində bu gün qorunan bu tarixi abidə əski şəhər divarının bir parçasıdır. Onun qalan hissələri zamanın gərdişinə tab gətirməmiş, tarixi rolunu oynayaraq yerini şəhərin yeni binalarına verməli olmuşdur. Bu da köhnə ilə yeninin mübarizəsində birincinin məğlubiyyətindən, daha gənc olan ikincinin qələbəsi fonunda turistlərin ziyarətgaha çevirdiyi Koppelportdan qalanlar.

Amersfortun məşhur Qadın qülləsi – Onze Lieve Vrouwentoren barədə danışmadan keçmək günah olardı. Nədən ki, bu kilsə qülləsi hündürlüyünə görə orta əsrlər Niderlandının üç ən hündür kilsəsindən biridir. Kilsənin hündürlüyü 98,33 metrdir. Bu kilsənin digər bir özəlliyi isə ikinci adının olmasındadır. Onu Lange Jan da adlandırırlar. Qadın qülləsi kilsəsinin tikintisinə 1444-cü ildə başlanılıb. Gecikmiş qotik üslubda, qırmızı kərpicdən tikilmiş bina əzəməti ilə görənləri heyran edir. 1787-ci ildə baş vermiş partlayış nəticəsində kilsə böyük zərər görsə də, kilsə qülləsi salamat qalmışdır. Bu kilsənin ölkənin göbəyində, mərkəzində tikildiyi iddia edilir. Əslində bu iddia coğrafi dəlillərlə də təsdiqlənir. O üzdən ki, kilsənin ucaldıldığı Amersfort doğrudan da Niderlandın mərkəzində yerləşir. Bu mövqeyi ilə şəhər ölkənin digər yaşayış məskənləri, bölgələri arasında birləşdirici həlqə rolunu oynayır. Şəhərdə birləşən dəmir yol qovşağı, eləcə də buradan keçən avtomobil yolları onun bu rolunu daha da artırır. Qadın qülləsinin digər bir özəlliyi isə Niderland topoqrafiya xidmətinin ondan bir səmt bildirici kimi bu gün də istifadə etməsidir.

Amersfortu bəzən yarızarafat, yarıgerçək "qayalar şəhəri" də adlandırırlar. Bu adın yaranmasının maraqlı tarixçəsi də var və mən oxucunu belə bir ləzzətdən məhrum etmək istəmədiyimdən həmin əhvalatı təqdim edirəm. Deməli, 1661-ci ildə şəhər varlılarından biri olan Everard Meyster dostları ilə mərc gəlir ki, bataqlıqda gördüyü böyük qayanı çıxartdıracaq. Bu məqsədlə o kisəsinin ağzını açır, qayanı bataqlıqdan çıxaran 400 şəhərlini pivəyə və duzlu krekerə qonaq edəcəyini vəd edir. Nəhayət, doqquz tonluq qaya bataqlıqdan çıxarılır. Meyster sözünün üstündə duraraq 3000 gülden pul xərcləyib qonaqlıq verir. Mərci udmasına baxmayaraq, qonum-qonşu arasında onun bu hərəkəti axmalıq hesab edilir, şit zarafata çevrilir. Bütün bunlardan cana doyan Everard Meyster qayanı ya köhnə məkanına buraxmaq, ya da torpağa basdırmaq məcburiyyətində qalır. Bunun üçün onun yeni bir qonaqlıq verib-vermədiyi məlum deyil. Adı dillər əzbəri olan həmin qaya bir də 1903-cü ildə yada düşür və yer altından çıxarılır, xüsusi postament üzərinə qaldırılaraq insanlara təqdim olunur. Bundan sonra şəhərə dünyanın dörd bir yanından – Belçika, Şotlandiya, Kanada, Yuqoslaviya və b. ölkələrdən qaya parçaları gətirilərək əski qala divarlarının ətrafına düzülür. Bununla da Amersfort özünün "qayalar şəhəri" ləqəbini təsdiqləmiş olur.

Şəhərin sakinləri və turistlər görməli yerləri kanallardan da seyr etmək imkanına malikdirlər. Kiçik bir motorlu qayıq kirayələyib əsas kanal boyunca Amersfortun dünəni ilə bu gününün sarmaş-dolaş olduğu mənzərələri görmək mümkündür. Quş uçuşundan şəhərə baxmaq istəyənlər isə rəngarəng hava şarlarında şəhərin təkrarsız görüntülərindən ləzzət ala bilərlər. Düzdür, hava şarlarına hər zaman minmək mümkün deyil. Bunun üçün havanın sakit və əlverişli olması lazımdır. Hava şarlarından əsasən yaz-yay aylarında yararlanmaq olar. Bundan əlavə, bu nəqliyyat vasitəsi hər kəsin cibinə görə deyil, yəni ona minib gəzmək üçün xeyli pulunun başından keçməlisən. Digər tərəfdən isə, hündürlük qorxusu – akrofobiyası olanların hava şarlarından istifadə etməsi məsləhət deyil. Nədən ki, nə olar, nə keçər.

Amersfortun tipik orta əsr şəhəri olduğu bəllidir. Əski şəhərin müdafiə divarlarının, bu günədək dağılmadan qalmış, qırmızı kərpicdən tikilmiş müxtəlif təyinatlı qüllələrinin varlığı deyilənləri təsdiqləyir. Şəhərdə orta yüzilliklərə məxsus tikililərin qorunması yüksək səviyyədədir. Məhz bu səbəbdəndir ki, bir neçə yüz yaşı olan, bu gün də istifadəyə yararlı binaların arasında dolaşmaq, əski küçələrdə gəzmək insanda mistik duyğular oyadır, ona özünü zaman maşınının keçmişə səyahət edən yolçusu hesab etmək üçün imkan yaradır. Amersfort 1259-cu ildə şəhər statusu alsa da, onun haqqında yazılı qaynaqlarda bir neçə əsr qabaq məlumatlar verildiyini öyrənmək olar. Amersfort 2009-cu ildə özünün 750 illiyini təntənəli şəkildə qeyd edib. Şəhərin əski hissəsindən kənarda ucaldılan binalar onun müasir simasının biçimlənməsində xüsusi rol oynayır. Şəhərin bu cür böyüməsi, onun əhalisinin artımında da nəzərə çarpır.

Amersfortun tarixi məhləsində, türklərin çarşı adlandırdığı Langestrat küçəsində cəmlənmiş alış-veriş mərkəzlərinə yolu düşənlərin velosipedlərini yaxınlıqdakı meydanın ətrafında saxlamalarına, bir-birinə yaxın-yaxın sıralanmış velosipedlərin çoxluğuna, hərdən bu meydanda polis itlərinin sakinlərə və qonaqlara müxtəlif nömrələr göstərməsinə, atlı polis qızların meydan ətrafındakı küçələrdə şəstlə dolaşmalarına, görünüşü ilə əski teplovozlara bənzəyən, turistləri şəhər gəzintisinə dəvət edən alabəzək elektromobil-qatara, kanalda turistlər üçün tur təşkil edən qayıqlara gözucu nəzər salıb çarşıya ayaq basırsan.

Müşahidə etdiyim bir məsələ barədə də məlumat vermək lazım olduğunu düşünürəm. Nədən ki, Niderlandda bu çox önəmli bir məsələdir. Alış-veriş yerlərinə baş çəkənlərin, sadəcə şəhər həyatının qaynarlığında gün keçirmək istəyənlərin sıxlığı Niderland insanına əlavə hərəkətlilik, canlılıq qazandırdığı velosipedlərdən istifadəni çətinləşdirir. Adi günlərdə çarşıdan velosiped sürmək üçün istifadə edildiyi halda, cümə axşamları və həftəsonları buna icazə verilmir. Buna əməl etməyənlərin cərimələnmə ehtimalı böyükdür. Velosipedçilər çarşıya girmək üçün velosipedlərini harayasa park etməlidirlər. Həmin vaxtlar velosipedlə çarşıdan keçmək istəyənlər velosipeddən enməli olur, çarşıdan çıxanadək onu yedəkləmək məcburiyyətində qalırlar.

*(davamı gələn sayda)*

**Afiq MUXTAROĞLU**
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

15 AVQUST 2022-Cİ İL № 015 (162)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "ახალი ათლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## UŞAQ BAĞÇALARININ QEYDİYYATDAN KEÇİRİLMƏSİ ÜÇÜN ƏTRAFLI TƏLİMAT MƏLUMDUR



"Erkən yaşda və məktəbəqədər tədris və təhsil haqqında" Gürcüstan qanununda həyata keçirilmiş dəyişikliklərə əsasən, erkən yaşda təhsili təmin edəcək və ya erkən yaşda tərbiyə və təhsil verəcək, yaxud yalnız məktəbə hazırlıq proqramı həyata keçirəcək müəssisələr qeydiyyat üçün elektron sistemdə ilkin qeydiyyatdan keçmək məcburiyyətindədirlər.

2022-ci ilin 1 iyuluna qədər bu istiqamətdə fəaliyyət göstərən bütün dövlət və özəl müəssisələr qeydiyyatdan keçmək məcburiyyətindədirlər.

Qeydiyyatdan keçmək vacibdir, çünki 2023-cü ildən yalnız elektron qeydiyyat sistemində qeydiyyatdan keçmiş müəssisələrə erkən yaşda təhsil və ya məktəbəqədər tədris və təhsil istiqamətində fəaliyyət göstərmək hüququ veriləcək.

Qeydiyyat prosesi 2022-ci ilin 1 iyulunda başlayıb və 2022-ci ilin 31 dekabrında başa çatacaq.

*Mənbə: etaloni.ge*

## UŞAQ BAĞÇALARINDA MÜƏLLİMLƏRİN SAYI ARTIB, UŞAQLARIN SAYI İSƏ AZALIB



Statistika İdarəsi Gürcüstan miqyasında məktəbəqədər təhsil müəssisələrinin, müəllimlərin və uşaqların sayı haqqında statistik göstəriciləri yayımlayıb. Rəsmi məlumata əsasən, uşaq bağçalarının ümumi sayı 2020-2021-ci illərlə müqayisədə 2021-2022-ci illərdə 1 dəfə artıb.

Əgər 2020-2021-ci illərdə Gürcüstan miqyasında 1647 uşaq bağçası var idisə, 2021-2022-ci illərdə bu rəqəm 1648 təşkil edib. 2020-2021-ci illərdə uşaqların sayı 158 062 nəfər təşkil edirdisə, 2021-2022-ci illərdə 4 min nəfər azalaraq 154 501 nəfərə enib.

Müəllimlərin sayı isə əksinə, artıb. 2020-2021-ci illərdə Gürcüstan miqyasında 16 234 müəllim var idisə, 2021-2022-ci illərdə 17 194 müəllim qeydiyyata alınıb.

Paytaxt Tbilisidə uşaq bağçalarının sayı isə 185-dən 187-yə qədər artıb. Əvəzində isə uşaqların sayı 58 836-dan 57 957-ə qədər azalıb. Müəllimlərin sayına gəldikdə isə 2021-2022-ci illərdə bu rəqəm 5 078-dən 5 610-a qədər artıb.

*Mənbə: etaloni.ge*

## KVEMO KARTLİDƏ 125,3 MİN AVTOMOBİL VAR

Milli Statistika İdarəsinin məlumatına əsasən, Gürcüstanda 1 477 293 nəqliyyat vasitəsi qeydiyyata alınıb. Bunlardan 1 milyon 254 min 851-i minik avtomobili, 107 min 983-ü yük avtomobili, 54 min 684-ü avtobus və ya mikroavtobus, 59 min 775-i isə xüsusi təyinatlı avtomobillərdir.

Məlumata görə, Gürcüstanda qeydiyyatda olan avtomobillərin 83,2 faizinin istehsal tarixi 10 ildən çoxdur və minik avtomobillərinin böyük hissəsi paytaxtın payına düşür.

Ölkə üzrə ən çox avtomobil paytaxt Tbilisidə qeydə alınıb - 448,8 min ədəd.

Siyahıda ikinci yerdə 175,2 minlə İmereti, **üçüncü yerdə 125,3 minlə Kvemo Kartli** bölgəsi dayanır.

Sayca ən az minik avtomobili Raça-Leçxumi və Kvemo Svaneti bölgələrindədir. Onların sayı ümumilikdə 8,5 min avtomobil təşkil edir.

## GÜRCÜSTAN 6 AY ƏRZİNDƏ 32,7 MİLYON DOLLAR DƏYƏRİNDƏ ŞƏKƏR ALIB



Cari ilin 6 ayı ərzində şəkər almaq üçün Gürcüstan 32,7 milyon ABŞ dolları xərcləyib. Nəticədə ölkəyə 56 660 ton şəkər idxalı həyata keçirilib.

Rəsmi statistikaya əsasən, şəkər idxalı ötən ilin eyni dövrünə olan göstəricilərdən miqdar (7,3 %) və qiymət (28,5 %) baxımından artıqdır.

Bu dövr ərzində 1 milyon dollar dəyərindən çox şəkər ölkəyə yalnız 6 idxalçı bazardan gətirilib. Onlar arasında Braziliya liderdir. **İdxalçı ölkələrin reytinqi isə belədir:**

**1. Braziliya – 11,7 milyon dollar, 21 675 ton;**
**2. Polşa – 8,8 milyon dollar , 13 447 ton;**
**3. Meksika – 6 milyon dollar, 11 500 ton;**
**4. Azərbaycan – 3 milyon dollar, 4 922 ton;**
**5. Türkiyə – 1,3 milyon dollar, 2 516 ton;**
**6. Fransa – 1,1 milyon dollar, 1 495 ton;**
**7. Niderland – 538 min dollar, 936 ton.**

Şəkər idxalı az miqdarda Kolumbiya, Ermənistan, Bolqarıstan, İtaliya, Ukrayna, Rusiya, İspaniya, Çin, Almaniya və İsraildən də həyata keçirilib.

Cari ildə ölkədən az miqdarda – 108 min dollar dəyərində 154 ton şəkər ixrac edilib. Buradan 54 min dollar (73 ton) yerli ixrac olub. Reeksport isə 54 min dollar (81 ton) təşkil edib. Hər iki halda şəkər Gürcüstandan Ermənistana ixrac edilib.

*Mənbə: bm.ge*

## GÜRCÜSTANIN XARİCİ DÖVLƏT BORCU BİR AY ƏRZİNDƏ 122,653 MİLYON DOLLAR AZALIB



Gürcüstanın xarici dövlət borcu bir ay ərzində 122,653 milyon ABŞ dolları azalıb.

Maliyyə Nazirliyinin məlumatına əsasən, 2022-ci ilin iyul ayına olan vəziyyətə görə Gürcüstanın xarici dövlət borcu 7,784 milyard dolları (bugünkü məzənnə ilə 21,524 milyard larini) aşıb. İyun ayında isə bu rəqəm 7,909 milyard dollar (ozamankı məzənnə ilə 23,158 milyard lari) təşkil edib.

2022-ci ilin 31 iyuluna olan göstəricilərə əsasən, Gürcüstanın ən böyük kreditorları bunlardır: Asiya İnkişaf Bankı (ABD); Avropa İnvestisiya Bankı (EIB), Dünya Bankı, Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (IBRD).

Gürcüstanın EIB-yə olan borcu 825,113 milyon ABŞ dolları; IBRD-a olan borcu 1,219 milyard ABŞ dolları, ADB-yə olan borcu isə 1,802 milyard ABŞ dollarından çoxdur. Dünya Bankına və Beynəlxalq İnkişaf Assosiasiyasına (IDA) olan borcu isə 737,964 milyon ABŞ dolları təşkil edir.

*Mənbə: bpn.ge*

Təsisçi: "Gürcüstan Gənclərinə Yardım və Maariflǝndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Qardabani şəh., Kolxoz küç. 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.